istifadəni genişləndiriblər. İKT-nin sürətli inkişafı ilə bir çox sahələrdə olduğu kimi turizmdə də elektron resursların təkmilləşməsi halları müşahidə olunur. Artıq insanlar səfər etmək istədikləri yer haqqında onlara lazım ola biləcək məlumatları internet resursları vasitəsilə öncədən ala bilirlər. Turizm məhsulunun əsas spesifik xüsusiyyətlərindən biri müştərinin məhsulla tanışlığı yalnız onu alıb istifadə etdikdə mümkün olmasıdır. Bu səbəbdən turizm məhsulunun satışı olduqca çətin hesab olunur.

Rəqəmsal marketinqin sürətlə inkişaf etdiyi bir məqamda Azərbaycan da öz sağlamlıq turizmi sənayesini təbliğ edə bilər. Rəqəmsal marketinqin ənənəvi marketinqdən əsas üstün cəhəti ondan ibarətdir ki, burada maliyyə xərcləri az olur və az maliyyə xərcləri ilə daha geniş kütləyə məhsul tanıtımını həyata keçirmək mümkündür. Sağlamlıq turizminin inkişafı, turizm müəssisələrinin və müvafiq resursların tanıdılması baxımından promo videoların, tanıtım çarxlarının, müxtəlif məzmunlu materialların hazırlanması və dünyaca məşhur internet portallarında, saytlarında və digər media orqanlarında yerləşdirilməsi mühümdür. Həmçinin, bu inkişafa nail olmaq üçün sosial şəbəkələrin rolu da danılmazdır. Sosial şəbəkələr sağlamlıq turizmində "elektron ağızdan ağıza marketinq (e-WOM)" kimi də qiymətləndirilir. Ağızdan ağıza marketinqdə opponentlərin heç bir kommersiya marağı olmadığına görə turistlər tərəfindən daha güvənilir hesab edilir [3, s.81]. Rəqəmsal marketinqin sürətlə inkişaf etdiyi və qlobal tendensiyaya çevrildiyi bir dövrdə Azərbaycanda sağlamlıq turizmi fəaliyyəti ilə məşğul olan qurumlar bu tendensiyaya uyğun hərəkət etməli və sahib olduğumuz turizm potensialımızın beynəlxalq miqyasda tanıdılması üçün rəqəmsal marketinqin, İKT-nin metod və üsullarından geniş istifadə etməkdə maraqlı olmalıdırlar.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016.

2. Crooks V.A., Ormond M., Jin K.N. Reflections on 'medical tourism' from the 2016 Global Healthcare Policy and Management Forum, 2017.

3. Hennig-Thurau T., Walsh G., Walsh G. Electronic Word-of-Mouth: Motives for and Consequences of Reading Customer Articulations on the Internet. 2015.

4. H. Ömer Tontuş Sağlık Turizmi Tanıtımı ve Sağlık Hizmetlerinin Pazarlanması İlkeleri Üzerine Değerlendirme. 2018.

5. Müalicə turizmi: sağlamlıq və istirahət. URL: http://medeniyyet.az/page/news/5948/Mualice-turizmi:-saglamliq-ve-istirahet.html

SAHİBKALIQ SUBYEKTLƏRİNDƏ MENECMENT SİSTEMİ

Xəlilova Xəyalə Qəmbər qızı
Mingəçevir Dövlət Universiteti

"Menecment" sözü amerikan mənşəli termindir. İngilis dilli ölkələrdə kifayət qədər sərbəst şəkildə istifadə edilir və müxtəlif mənalarıla işlənir. Cansız təbiətdə baş verən proseslərin idarə edilməsində bu termin nəzarət, dövlət və ictimaiyyətdə isə

inzibati ideya kimi istifadə edilir. Eyni zamanda “Menecment” bizneslə yanaşı təsərrüfat fəaliyyəti sferasını da əhatə edir.

Menecment" o kateqoriyadan olan firma və müəssisələrə aid edilir ki, onlar mənfəət (sahibkarlıq gəlirləri) əldə etmək məqsədi ilə fəaliyyət göstərsinlər. Menecment yalnız sənaye firmasının deyil, həmçinin bazarda müstəqil subyekt kimi çıxış edən bank, sığorta cəmiyyətinin turist agentliyinin, mehmanxana və nəqliyyat şirkətinin və digər təsərrüfat vahidlərinin fəaliyyətini əhatə edir.

Firmanın təsərrüfat fəaliyyətinə aşağıdakılar aid edilir:

- istehsal prosesini bütün zəruri resurslarla təmin edilməsi;
- istehsal texnologiyasının hazırlanması və təkmilləşdirilməsi;
- məhsulun keyfiyyətinin tələb olunan səviyyədə təmin edilməsi;
- kommersiya əməliyyatlarının həyata keçirilməsi;
- əmtəələrin hərəkəti ilə bağlı əməliyyatların aparılması;
- bütün növ hesablaşmaların həyata keçirilməsi;
- məhsula texnika xidmətin təmin edilməsi;
- istehsal prosesini maddi-texniki təchizatı;
- maliyyə resursları ilə təminat:
- personalın təmin edilməsi.

Azad sahibkarlığa və rəqabətə əsaslanan təsərrüfatçılığın bazar mexanizmi istər nəzəri və istərsə də praktik cəhətdən bir sıra elmlərin öyrənilməsini tələb edir. Dünya təcrübəsi göstərir ki bu biliklərin mühüm tərkib hissəsi kimi menecment elmi xüsusi ilə fərqləndirilir.

Menecment - insanların qarşıya qoyulan məqsədlərə nail olması üçün onun, intellekt və davranış istifadə etmə prosesidir. Menecment ən müxtəlif təşkilatlarda insanlara rəhbərlik üzrə fəaliyyət növü olub, idarəetmə fünksiyalarını yerinə yetirir. Menecment və menecer terminləri yalnız bazar təsərrüfatçılıq sistemlərinə xasdır.

Qədim dövrün filosofları bütövlükdə cəmiyyətin və onun üzvlərinin ağır sosial vəziyyətinin səbəblərini insanlar arasında tabeçilik prinsiplərinin pozulmasında, çevik idarəetmə sisteminin olmamasında görürdülər. Ona görə də ədalətli və səmərəli idarəetmənin təbiəti və prinsipləri bir çox xalqların dahi fiIofoslarının təfəkkür predmetinə çevrilmişdir. İdarəetmə mürəkkəb sosial-iqtisadi prosesdir. O, geniş mənada qarşıya qoyulan məqsədə uyğun olaraq obyekt və proseslərə təsiri əhatə edir. Onun məqsədi canlı və əşyalaşmış əmək məsrəflərinin məhsul vahidinə görə azaldılması hesabına təsərrüfat fəaliyyətinin nəticələrinin yüksəldilməsidir. İqtisadi və sosial proseslərin səmərəli idarə edilməsi müəyyən şərtlərin formalaşdırılasını tələb edir. Buna da mülkiyyətin tipi, dövlət quruluşunun forması və bazar münasibətlərinin inkişafı aid edilir. Təhlil göstərir ki, planlı təsərrüfatçılıq şəraitində, yəni ictimai mülkiyyətin bazasında bazar münasibətlərinin zəif inkişaf etdiyi sistemdə təsərrüfat fəaliyyətinin sərbəst, manevr imkanları məhdudlaşır və idarəetmənin səmərəliyi aşağı düşür. Təsərrüfatçılığın bazar modeli şəraitində, yəni xüsusi mülkiyyətin inkişaf etdiyi sistemdə təsərrüfat fəaliyyətinin həyata keçirilməsində müəssisələr sərbəstlik qazanırlar. Onlar öz xərcini ödəmə, özünü maliyyələşdirmə, azad sahibkarlıq və rəqabət prinsipləri əsasında fəaliyyət göstərirlər. Bütün bunlar isə mülkiyyətə sahiblik

hisslərini bərqərar edir. Bu zaman idarəetmənin və rəhbərliyin rolunu dəyişir, rəhbər menecerə, idarəetmə isə menecmentə çevrilir.

Menecment idarəetmə fəaliyyətinin əsas tərkib hissəsi olub bazar münasibətləri şəraitində formalaşan müəssisənin kollektiv vasitəsilə idarə edilməsinin səmərəli praktikasını əhatə edir. Menecment əmək, material və maliyyə ehtiyatlarından səmərəli istifadə şəraitində qarşıya qoyulan məqsədə nail olmaq üçün müəssisənin idarəetmə texnikasını və metodlarını özündə əks etdirir. Menecmentin keyfiyyət kriteriyaları kimi azad sahibkarlığa və rəqabətə əsaslanır. Sahibkarlıq şəraitində işgüzar fəaliyyətlə məşğul olan menecerin müvəffəqiyyəti ön plana çəkilir. Menecmentin məqsədi resurslardan səmərəli istifadə edilməsindən və müəssisənin fəaliyyətinin səmərəli təşkilindən ibarətdir.

Menecmentin fəlsəfəsi qeyri-mərkəzləşdirilmiş iqtisadiyyatı, xüsusi təşəbbüskarlığı və müstəqilliyi əhatə edir. Menecmentin və menecer fəaliyyətinin səmərəliliyi təsərrüfat fəaliyyətinin nəticələrini xarakterizə edən iqtisadi göstəricilərin səviyyəsi ilə ölçülür. Bazar münasibətləri şəraitində o, menecer işgüzar sayılır ki, o bazarda şəraitin dəyişməsinə tez uyğunlaşsın, müəssisə üçün yeni bazarlar formalaşdırsın. Odur ki, menecmentin əsas məqsədi arzu olunan imkanı reallaşdırmaqdan idarətdir. Bu şəraitdə rəhbər nəzarətedici funksiyalarla yanaşı, daha çox yaradıcı funksiyaları da yerinə yetirir. Menecment idarəetmə fəaliyyətinin spesifik növü olub aşağıdakı prinsiplər üzərində qurulur:

1. Menecment əmak ehtiyatlarını əhatə edir. Onun vəzifəsi müəssisənin idarə edilməsində birgə fəaliyyətinin əlaqələndirilməsindən ibarətdir;

2. Hər bir müəssisədə menecmentdən sadə və dəqiq vəzifələr tələb edilir. Onun da missiyası öz üzvlərini ümumi məqsədlərin yerinə yetirilməsinə yönəltməkdir;

3. Hər bir müəssisədə menecmentin vəzifəsi tələbatların ödənilməsini təmin etməkdən ibarətdir;

4. Hər bir müəssisə müxtəlif iş proseslərini yerinə yetirən və müxtəlif təfəkkür tərzinə malik olan insanlardan, yəni əmək ehtiyatlarından təşkil olunur. Ona görə də işçilər arasındakı əlaqə istehsal münasibətləri və fərdi məsuliyyət əsasında qurulur;

5. Əmtəə istehsalı və satışın həcmi, maddi-texniki təchizat özlüyündə menecment fəaliyyətini və müəssisələrin işinin nəticələrinin ölçülməsini əhatə etmir;

6. Menecment müəssisə çərçivəsində əmək ehtiyatlarının inteqrasiyasını əhatə edir, İdarəetmə əmək ehtiyatlarına şamil edilir.

Menecmentin təşkilati strukturu onun korporativ orqan olması ilə xarakterizə olunur. Yuxanda göstərilən məqsədlərə nail olunması menecment əsasında həyata keçirilir.

Ədəbiyyat:

1. Niftullayev V. Sahibkarlığın əsasları. Bakı, 2002.
2. Ağasəf İ. Menecment. Bakı, 2007.